**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**5714.01 - Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik ixtisası üzrə fəlsəfə doktoru proqramı üzrə ixtisas imtahanı üçün**

# PROQRAM

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin**

**Elmi Şurasının qərarı ilə tövsiyə edilmişdir.**

**(2026-ci il 31 mart 5 saylı protokol)**

**BAKI - 2026**

Tərtib edənlər: prof. Oqtay Cəlilbəyli

b/m., f.ü.f.d. Ellada Məmmədova

Elmi redaktor : prof. Oqtay Cəlilbəyli

Rəyçilər: f.ü.e.d., dos. Kəmalə Əhmədova

f.ü.f.d., dos. Cavanşir Muradov

## İzahat vərəqi

BDU-nun Şərqşünaslıq fakültəsi "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik" ixtisası üzrə doktoranturaya ixtisas imtahanlarının keçirilməsi üçün Koreya dili və Ümumi dilçilik fənlərinə aid hazırlanmış proqramda əsas məqsəd olaraq (5714.01 – "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik" ixtisası üzrə) qəbul olunacaq doktorantların Ümumi dilçilik fənni üzrə bilik səviyyələrini müəyyənləşdirmək nəzərdə tutulmuşdur.

## Giriş

Dilçilik bir elm kimi. Elmlər sistemində dilçiliyin yeri. Dilçiliyin sahələri: nəzəri və tətbiqi dilçilik. Ümumi və xüsusi dilçilik.

## Dil nəzəriyyəsi

Dilin mahiyyəti və təbiəti. Dil və nitq. Dilin işarəviliyi. Dil sistemi və strukturu. Dilin vahidləri. Dilin səviyyələri. Dil vahidləri arasında əlaqələr: sintaqmatik və paradiqmatik münasibətlər. Dilin iyerarxik təşkili. Dilin səviyyələri. Dilçiliyin şöbələri. Dil, şüur və təfəkkür. Dil və cəmiyyət. Dilin sosial diferensiallaşması. Dilin inkişafı. Dilin inkişafında daxili və xarici amillərin rolu. Ədəbi dillər və onların tipləri. Dillərin (təması) kontaktı.

## Müqayisəli-tarixi dilçilik

Dilə müqayisəli və tarixi baxışın yaranması. Müqayisəli-tarixi dilçiliyin əmələ gəlməsi, F.Bopp, R.Rask, Y.Qrimm, Y.Bredsdorf və A.Vostokov hind-Avropa dilləri ailəsinin müxtəlif qruplarına aid dillərin müqayisəli qrammatikalarının yaradıcısı kimi. F.Boppun 1816-cı ildə çap edilmiş «Yunan, latın, fars və german dillərinin təsrifi ilə müqayisədə və mətnin orijinalında, dəqiq vəznli tərcümədə Ramayana və Mahabharatadan epizodlarla və Vedalardan təfriqələrlə sanskritin təsrif sistemi» adlı əsərinin müqayisəli-tarixi dilçiliyin əsası kimi qiymətləndirilməsi.

F.Boppun «Sanskrit, zend, erməni, yunan, latın, Litva, köhnə slavyan, qot və alman dillərinin müqayisəli qrammatikası».

Boppun aqqlütinasiya nəzəriyyəsi.

F.Boppun dillərin tipoloji təsnifi. Üç dil tipi:

1. Həqiqi söz kökü olmayan dillər.

2. Birləşmə qabiliyyətinə malik təkhecalı söz kökləri olan dillər.

3. Üç samitlə səciyyələnən ikihecalı söz kökləri olan dillər.

Müqayisəli-tarixi dilçiliyin yaradıcılarından olan Rasmus Xristian Raskın «Qədim şimal dili sahəsində tədqiqat və yaxud island dilinin mənşəyi» adlı əsəri.

Müqayisəli-tarixi dilçiliyin görkəmli nümayəndələrindən biri olan Yakov Qrimmin dördcildlik «Alman qrammatikası» əsəri. Rask-Qrimm qanunu.

Müqayisəli-tarixi dilçiliyin Rusiyada ilk görkəmli nümayəndəsi Aleksandr Xristoforoviç Vostokov. Onun «Slavyan dili haqqında mülahizələr» adlı əsəri. XIX əsrin ortalarında müqayisəli-tarixi dilçilik.

A.Şlayxer müqayisəli-tarixi dilçiliyin görkəmli nümayəndəsi kimi. Onun 1861-1862-ci illər arasında nəşr etdirdiyi «Hind-german dillərinin müqayisəli qrammatikası kompendiumu» və 1869-cu ildə nəşr edilmiş «Hind-german dillərinin müntəxəbatı» əsərləri.

A.Şlayxerin Hind-Avropa dillərinin təsnifini şəcərə (nəsil ağacı) əsasında izah etməsi. Gənc qrammatiklər, Moskva və Kazan dilçilik məktəbləri. Bu məktəblərin əsas nümayəndələri. Onların dilçilik görüşləri. Müasir dövrdə müqayisəli-tarixi dilçilik. Müqayisəli-tarixi metod. Müqayisəli-tarixi metodda istifadə edilən əsas tədqiqat üsulları.

**Linqvistik tipologiya**

Linqvistik tipologiyanın mahiyyəti.

Dillərin tipoloji təsnifini ilk dəfə alman alimi F.Şlegelin «Hindlilərin dili və müdrikliyi» (1808) əsərində verilməsi. F.Şegel tərəfindən dillərin iki böyük qrupa ayrılması: 1) şəkilçili dillər (Çin, bantu, türk, polineziya dilləri), 2) fleksiyalı dillər (sami dillər, gürcü, fransız dilləri).

Avqust Şlegelin Çin və Hind-Çin dillərini bütün morfoloji və sintaktik əlaqələri söz sırası ilə verilən, qrammatik strukturu olmayan dilləri kimi fərqləndirməsi, flektiv dillərin daxilində isə daxili fleksiyalı və xarici fleksiyalı dillərin olduğunun göstərilməsi, sintetizm və analitizmin qarşı-qarşıya qoyulması.

V. fon Humboldt dillərin tipoloji təsnifinin banisi kimi. A.Şlayxerin tipoloji təsnifatı.

Göstərilən dilçilərin əsərlərində dil tipinin dillərin morfoloji xüsusiyyətə görə müəyyənləşdirilməsi. Dillərin tipoloji təsnifinin *morfoloji*, habelə *ənənəvi morfoloji* təsnif terminləri ilə də adlandırılması.

H.Ştayntalın forma, əslində isə sintaksis anlayışını tipoloji təsnifə bir prinsip kimi daxil etməsi.

F.N.Finkin tipoloji təsnifi. Dillərin strukturunun «doluluğu» və fraqmentliyi. E.Səpirin «Dil» əsəri və burada dillərin tipoloji təsnifi. L.Qrinberqin «Dillərin morfoloji tipologiyasına kvantitativ yanaşma» adlı əsəri. Tipologiyada kvantitativ üsulun prinsipləri. B.A.Uspenskinin tipoloji təsnifi. Tipoloji tədqiqat istiqamətləri. Pilləli tipologiya. Kvantitativ tipologiya. Tipologiyada statistik metodlar. Xarakteroloji tipologiya. Struktur tipologiya. Sistemli tipologiya. Səviyyələr tipologiyası. Dillərin determinativ təsnifi. Dil tipləri. Köksözlü dillər. Aqqlütinativ dillər. Flektiv dillər. Polisintetik dillər.

## ƏDƏBİYYAT


1. Axundov A.A. Ümumi dilçilik, Bakı, 2006.
2. Rəcəbli Ə.Ə. Dilçilik tarixi. I, Bakı «Nurlan», 2006.
3. Rəcəbli Ə.Ə. Dilçilik metodları, Bakı, 2003.
4. Rəcəbli Ə.Ə. Nəzəri dilçilik, Bakı, 2003.
5. Rəcəbli Ə.Ə. Tipoloji dilçilik, Bakı, 2010.
6. Новое в лингвистике, III, М, 1963.
7. Морфологическая типология и проблема классификации языков. М. 2, 1965.
8. Сепир Э. Язык, М., 1934.
9. Структурная типология языков, М., 1966.
10. Языковые универсалии и лингвистическая типология. М., 1969.